*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 10 fevral 2021-ci il tarixli, SQ-06/2021-2 saylı qərarı ilə təsdiq edilmişdir.*

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə yerli müşahidənin aparılması qaydaları haqqında

# T Ə L İ M A T

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə Azərbaycan Respublikası vətəndaşının müşahidə aparması qaydaları "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun (bundan sonra – Qanun) 37-40-cı maddələrinə və bu Təlimata müvafiq olaraq tənzimlənir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə Naxçıvan Muxtar Respublikasında aktiv seçki hüququna malik olan hər bir vətəndaş muxtar respublika ərazisində və ya seçki dairəsinin ərazisində öz təşəbbüsü, qeydə alınmış namizədin, siyasi partiyanın və ya siyasi partiyalar blokunun təşəbbüsü əsasında müşahidə apara bilər.

Müşahidə muxtar respublikanın bütün ərazisində, bir seçki dairəsinin ərazisində, habelə müvafiq seçki komissiyalarının iclaslarını xüsusi icazə əsasında müşahidə etməklə aparıla bilər.

## 1. Naxçıvan Muxtar Respublikasının bütün ərazisində müşahidə aparmaq üçün müraciət etmiş vətəndaşların qeydə alınması qaydası

1.1. Naxçıvan Muxtar Respublikasının bütün ərazisində müşahidə aparmaq niyyətində olan Naxçıvan Muxtar Respublikasında aktiv seçki hüququna malik olan vətəndaş seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasına bu barədə ərizə *(Təlimata 1 saylı əlavə)* təqdim edə bilər. Ərizədə müşahidə aparmaq niyyətində olan şəxsin soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, zərurət olduqda isə, həm də maraqları təmsil olunacaq namizədin adı, siyasi partiyanın, siyasi partiyalar blokunun adı və hüquqi ünvanı göstərilməlidir. Ərizəyə 3×4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə olunmalıdır. Hər bir ərizəyə dair qərar onun verildiyi tarixdən başlayaraq 3 gün müddətində qəbul edilməlidir. Müşahidənin aparılmasına rədd cavabı yalnız ərizədə göstərilən məlumatlar təsdiq olunmadıqda verilə bilər. Mərkəzi Seçki Komissiyası tərəfindən müşahidənin keçirilməsinə icazə verilmədikdə, həmin vətəndaşın Mərkəzi Seçki Komissiyasının bu qərarından Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə şikayət vermək hüququ vardır.

1.2. Müşahidənin aparılmasına icazə verildikdə, müşahidəçiyə Mərkəzi Seçki Komissiyası tərəfindən lövhəcik (*Təlimata 2, 2a, 2b və 2c saylı əlavələr*) verilir.

**2. Seçki dairəsinin ərazisində müşahidə aparmaq üçün müraciət etmiş vətəndaşların qeydə alınması qaydası**

2.1. Seçki dairəsinin ərazisində müşahidənin aparılmasına dair ərizə *(Təlimata 1a saylı əlavə)* seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərc edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək müvafiq dairə seçki komissiyasına təqdim edilə bilər. Ərizədə müşahidə aparmaq niyyətində olan şəxsin soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, zərurət olduqda isə həm də maraqlarını təmsil etdiyi namizədin adı, siyasi partiyanın, siyasi partiyalar blokunun adı və hüquqi ünvanı göstərilməlidir. Ərizəyə 3×4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə olunmalıdır. Hər bir ərizəyə dair qərarın qəbul edilmə müddəti ərizənin verildiyi tarixdən başlayaraq 2 gündən artıq ola bilməz. Müşahidənin aparılmasına rədd cavabı yalnız ərizədə göstərilən məlumatlar təsdiq olunmadıqda verilə bilər. Müşahidənin keçirilməsinə dairə seçki komissiyası tərəfindən icazə verilmədikdə, dairə seçki komissiyasının bu qərarından Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

2.2. Müşahidənin aparılmasına icazə verildikdə, müvafiq dairə seçki komissiyası müşahidəçiyə Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada hazırlanmış lövhəcik *(Təlimata 3, 3a, 3b və 3c saylı əlavələr)* verir.

**3. Xüsusi icazəli müşahidəçi statusu almaq üçün müraciət etmiş vətəndaşların qeydə alınması qaydası**

3.1. Səsvermə gününədək seçki komissiyasının iclaslarını müşahidə etmək hüququna yalnız Qanunun 37.13-cü maddəsi ilə və bu Təlimatla müəyyən edilmiş qaydada həmin hüququn əldə edilməsi

üçün Mərkəzi Seçki Komissiyasına ərizə *(Təlimata 1c saylı əlavə)* ilə müraciət edərək qeydiyyatdan keçməklə xüsusi icazə almış müşahidəçilər malikdir. Mərkəzi Seçki Komissiyasının verdiyi lövhəciklərdə *(Təlimata 4, 4a və 4b saylı əlavələr)* həmin hüquq göstərilməlidir. Bu Təlimatın giriş hissəsində göstərilən subyektlərin (qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku) hər birinin ayrı-ayrılıqda hər seçki komissiyası üçün komissiyanın iclaslarını müşahidə etmək hüququna malik bir müşahidəçisi ola bilər. Mərkəzi Seçki Komissiyası onları, hər bir seçki komissiyasında 5 nəfərdən artıq olmamaqla, püşkatma yolu ilə təyin edir.

***Qeyd:*** *səsvermə günü seçki komissiyasının iclasını müşahidə etmək üçün digər müşahidəçilərdən xüsusi icazə tələb olunmur.*

**4. Müşahidənin aparılmasının prinsipləri**

4.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

4.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

4.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

4.1.3. müşahidə açıq aparılmalıdır;

4.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

4.2. Sadalanan prinsiplər müşahidəçinin lövhəciyinin arxasında göstərilməlidir.

4.3. Müşahidəçi müşahidəni aparan zaman yuxarıda sadalanan prinsiplərə hökmən əməl etməli, aşkar etdiyi faktları müəyyən olunmuş qaydada (buna dair müvafiq akt tərtib etməklə) rəsmiləşdirməli, imkan

daxilində həmin faktların rəsmiləşdirilməsinə maraqlı şəxslərin diqqətini cəlb etməlidir. Seçki prosesində aşkarlığın təmin edilməsi, ehtimal edilən pozuntuların qarşısının alınması və baş vermiş pozuntuların nəticələrinin aradan qaldırılmasının təmin edilməsi məqsədilə həmin halların müvafiq komissiyanın nəzərinə çatdırılmasının məqsədə müvafiqliyi daim diqqətdə saxlanılmalıdır[1].

**5. Müşahidəçilərin hüquq və vəzifələri**

**5.1. Müşahidəçilərin aşağıdakı hüquqları vardır:**

5.1.1. seçici siyahıları ilə tanış olmaq;

5.1.2. səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq;

5.1.3. seçicilərə seçki bülletenlərinin verilməsini müşahidə etmək;

---

[1] ***Qeyd:*** *seçkilərin digər iştirakçıları kimi müşahidəçilər də Qanunun 2.4-cü maddəsində göstərilən aşağıdakı şərtlərə riayət etməlidirlər:*

- *mətbuat azadlığına hörmət bəsləmək;*
- *öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, partiyaların (siyasi partiyalar bloklarının) seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;*
- *seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq;*
- *seçkiqabağı təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhv etməmək və korlamamaq;*
- *seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;*
- *seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;*
- *seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;*
- *səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək;*
- *səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;*
- *seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək;*
- *seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamaq;*
- *seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;*
- *hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq;*
- *seçicilərə mükafat təqdim etməmək, onları cəza ilə hədələməmək;*
- *təzyiq göstərmək ilə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək;*
- *dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan bu Qanunla nəzərdə tutulmamış hallarda istifadə etməmək;*
- *təzyiq göstərməklə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya geri götürməməyə, seçkiqabağı təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməmək;*
- *heç bir vəzifəli şəxsin namizədin dəstəklənməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək.*

5.1.4. səsvermə yerindən kənarda seçicilərin səs verməsini müşahidə etmək;

5.1.5. seçicilərin sayını hesablamaq, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək;

5.1.6. müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək;

5.1.7. seçki komissiyasının qanuni fəaliyyətinə maneə törətmədən müşahidə aparmağı təmin edən şəraitdə və müşahidənin maneəsiz aparılmasına imkan verən məsafədən seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlığını yoxlamaq məqsədilə baxmaq, səsvermənin nəticələri və seçkilərin yekunları (ümumi yekunları) haqqında seçki komissiyasının protokolu ilə və digər sənədlərlə tanış olmaq;

5.1.8. səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət etmək;

5.1.9. seçki komissiyalarının sənədlərinin, o cümlədən səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların, səsvermə günü seçki komissiyasının işə başladığı və seçki qutularının kilidləndiyi andan seçki komissiyaları tərəfindən səsvermənin nəticələri haqqında protokolların qəbul edilməsinədək seçki komissiyaları tərəfindən tərtib edilmiş və ya onlara əlavə olunmuş qoşma sənədlərin təsdiqlənmiş surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxarmaq və

ya almaq, əlavə nüsxələri Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən haqq ödənilməklə çıxarmaq və ya almaq;

5.1.10. səsvermədə iştirak edən şəxslərin siyahısı ilə tanış olmaq;

5.1.11. seçki sənədlərinin yuxarı seçki komissiyalarına göndərilməsini müşahidə etmək;

5.1.12. seçki komissiyalarında seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə etmək;

5.1.13. səsvermənin nəticələrinin və seçkilərin yekunlarının müəyyənləşdirilməsini müşahidə etmək;

5.1.14. səsvermənin nəticələri və seçkilərin yekunları (ümumi yekunları) haqqında protokolun tərtib olunmasını müşahidə etmək;

5.1.15. səslərin hesablanmasını və ya təkrar hesablanmasını müşahidə etmək;

5.1.16. səslərin paralel sayılmasında iştirak etmək;

5.1.17. səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyası protokolunun 1-ci nüsxəsinin dairə seçki komissiyasına göndərilməsini müşahidə etmək;

5.1.18. qanunla qadağan edilməyən digər hərəkətlər (hərəkətsizlik) etmək.

5.2. **Müşahidəçilərə aşağıdakı hərəkətlər qadağan edilir:**

5.2.1. seçicilərə seçki bülletenləri vermək;

5.2.2. seçiciyə necə səs verəcəyi və necə səs verdiyi haqqında sual vermək;

5.2.3. seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteninin alınması haqqında imza etmək;

5.2.4. seçicinin xahişi ilə seçki bülletenini doldurmaq;

5.2.5. seçki komissiyalarının üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək;

5.2.6. seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək;

5.2.7. seçicilər arasında təşviqat aparmaq;

5.2.8. bu və ya digər namizədin, siyasi partiyanın dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;

5.2.9. müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;

5.2.10. seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla);

5.2.11. qanunla qadağan edilən digər hərəkətlər (hərəkətsizlik) etmək.

**6. Müşahidəçilərin səlahiyyət müddəti və səlahiyyətlərinə xitam verilməsi qaydası**

6.1. Müşahidəçinin səlahiyyət müddəti ona müvafiq seçki komissiyası tərəfindən bu statusun verildiyi andan başlanır və müvafiq məhkəmələrdə seçkilərlə əlaqədar bütün mübahisələrə baxıldıqdan sonra, seçkilərin yekunlarının (ümumi yekunlarının) rəsmi dərc edildiyi gün bitir.

6.2. Bu Təlimatın 5.3-cü bəndində göstərilən tələblərə riayət etməyən müşahidəçinin qeydiyyatı onu qeydə almış seçki

komissiyasının müraciəti əsasında müvafiq məhkəmə tərəfindən ləğv edilə bilər.

6.3. Müşahidəçilərin səlahiyyətlərinə qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda və qaydada da xitam verilə bilər.

*Təlimata 1 saylı əlavə*

Naxçıvan Muxtar Respublikası
Mərkəzi Seçki Komissiyasına

________________________ yaşayan
*( yaşayış yerinin ünvanı)*
_______________________________
*( şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən*
__________________________ malik
*sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

____________________________
*(soyadı, adı, atasının adı)*

tərəfindən Naxçıvan Muxtar Respublikasının bütün ərazisində müşahidə aparılmasına dair

# Ə R İ Z Ə

Xahiş edirəm mənə “___” __________ 20__ il tarixə təyin edilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə Naxçıvan Muxtar Respublikasının bütün ərazisində müşahidə aparmağa icazə verəsiniz.

Mən ________________________________________________
*(zərurət olduqda namizədin soyadı, adı, atasının adı, siyasi partiyanın, siyasi partiyalar blokunun, qeyri-hökumət təşkilatının adı)*

maraqlarını təmsil edirəm.

Qoşma : _____________

İmza ______________ _________________________
*(ərizəçinin soyadı, adı, atasının adı)*

“____” ________ 20__ il

**Qeyd**: 1. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.

*Təlimata 1a saylı əlavə*

__ saylı __________ seçki dairəsinin
dairə seçki komissiyasına
________________________yaşayan
*( yaşayış yerinin ünvanı)*
_______________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən*
__________________________ malik
*sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

_______________________________
*(soyadı, adı, atasının adı)*
tərəfindən bu seçki dairəsinin
ərazisində müşahidə aparılmasına dair

# Ə R İ Z Ə

Xahiş edirəm mənə "___" __________ 20___ il tarixə təyin edilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə ___ saylı ______________ seçki dairəsinin ərazisində müşahidə aparmağa icazə verəsiniz.

Mən _______________________________________________
*(zərurət olduqda namizədin soyadı, adı, atasının adı, siyasi partiyanın, siyasi partiyalar blokunun, qeyri-hökumət təşkilatının adı)*

maraqlarını təmsil edirəm.

Qoşma : _____________

İmza ______________ ________________________
*(ərizəçinin soyadı, adı, atasının adı)*

"____" ________ 20__ il

**Qeyd**: 1. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.

*Təlimata 1b saylı əlavə*

__ saylı _________ seçki dairəsinin
dairə seçki komissiyasına
______________________yaşayan
*(yaşayış yerinin ünvanı)*
_____________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən*
_________________________ malik
*sənədin seriyası, nömrəsi və verilmə tarixi)*
_____________________________
*(soyadı, adı, atasının adı)*
tərəfindən bu seçki dairəsinin ______
saylı seçki məntəqəsində müşahidə
aparılmasına dair

# Ə R İ Z Ə

Xahiş edirəm mənə "___" __________ 20___ il tarixə təyin edilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə ___ saylı ______________ seçki dairəsinin ___ saylı seçki məntəqəsində müşahidə aparmaq üçün lövhəcik verəsiniz.

Mən_________________________________________________
*(namizədin soyadı, adı, atasının adı, təşəbbüs qrupunun və ya siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

tərəfindən "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununa uyğun olaraq yuxarıda göstərilən seçki məntəqəsinə müşahidəçi təyin edilmişəm.

Qoşma : _____________

İmza ______________ ___________________________
*(ərizəçinin soyadı, adı, atasının adı)*

İmza ______________ _______________________________
*(qeydə alınmış namizədin soyadı, adı, atasının adı)*

"____" ________ 20__ il

**Qeyd**:

1. Qeydə alınmış namizəd tərəfindən müşahidəçi təyin edildikdə, öz iradəsini ifadə etmək üçün bu ərizə namizəd tərəfindən də imzalana bilər. Bu zaman namizədin ayrıca ərizəsinə ehtiyac yoxdur. Əgər namizədin bu ərizəni imzalamaq imkanı yoxdursa, müşahidəçini təyin etmə barədə yazılı müraciəti bu ərizəyə əlavə edilməlidir. Siyasi partiya, siyasi partiyaların bloku, seçicilərin təşəbbüs qrupu tərəfindən müşahidəçi təyin edildikdə, bu barədə qərarın təsdiq edilmiş surəti bu ərizəyə əlavə edilməlidir.

2. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.

*Təlimata 1c saylı əlavə*

Naxçıvan Muxtar Respublikası
Mərkəzi Seçki Komissiyasına
________________________yaşayan
*( yaşayış yerinin ünvanı)*
_______________________________
*( şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən*
_________________________ malik
*sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

_______________________________
*(soyadı, adı, atasının adı)*
tərəfindən səsvermə gününədək
seçki komissiyasının iclaslarında
müşahidə aparılmasına dair

# Ə R İ Z Ə

Xahiş edirəm mənə "___" _________ 20__ il tarixə təyin edilmiş Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər zamanı səsvermə gününədək _______________________________________
*(iclaslarında müşahidə aparılacaq seçki komissiyası barədə məlumat)*
iclaslarını müşahidə etmək üçün xüsusi icazə verəsiniz.

Mən _______________________________________________
*(zərurət olduqda namizədin soyadı, adı, atasının adı və ya siyasi partiyanın, siyasi partiyalar blokunun, qeyri-hökumət təşkilatının adı)*
maraqlarını təmsil edirəm.

Qoşma : _____________

İmza ______________ ___________________________
*(ərizəçinin soyadı, adı, atasının adı)*

"____" ________ 20__ il

**Qeyd**: 1. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.

*Təlimata 2 saylı əlavə*

| | |
|---|---|
| **NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNƏ SEÇKİLƏR** | **SEÇKİ İLİ** |

**Vətəndaş**

_________________________

*soyadı, adı, atasının adı*

**özünün təşəbbüsü əsasında**

| | |
|---|---|
| **NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BÜTÜN ƏRAZİSİ ÜZRƏ M Ü Ş A H İ D Ə Ç İ** | № __ |

(lövhəciyin arxa tərəfi)

**M a d d ə 38. Müşahidə aparılmasının prinsipləri**

38.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

38.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

38.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

38.1.3. müşahidə açıq aparılmalıdır;

38.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***(“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu)***

*Təlimata 2a saylı əlavə*

<table>
<tr><td>NAXÇIVAN MUXTAR RESPUBLİKASI<br>ALİ MƏCLİSİNƏ SEÇKİLƏR</td><td>SEÇKİ<br>İLİ</td></tr>
<tr><td colspan="2">Vətəndaş ____________________<br>soyadı, adı, atasının adı<br>namizədin təşəbbüsü əsasında<br>______________________________<br>namizədin soyadı, adı, atasının adı</td></tr>
<tr><td>NAXÇIVAN MUXTAR RESPUBLİKASININ<br>BÜTÜN ƏRAZİSİ ÜZRƏ<br>M Ü Ş A H İ D Ə Ç İ</td><td>№ __</td></tr>
</table>

(lövhəciyin arxa tərəfi)

**M a d d ə 38. Müşahidə aparılmasının prinsipləri**

38.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

38.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

38.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

38.1.3. müşahidə açıq aparılmalıdır;

38.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***(“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu)***

*Təlimata 2b saylı əlavə*

| NAXÇIVAN MUXTAR RESPUBLİKASI<br>ALİ MƏCLİSİNƏ SEÇKİLƏR | SEÇKİ<br>İLİ |
|---|---|
| **Vətəndaş** ___________________<br>*soyadı, adı, atasının adı*<br><br>**siyasi partiyanın, siyası partiyalar blokunun təşəbbüsü əsasında**<br>________________________________<br>*siyasi partiyanın, siyasi partiyalar blokunun adı* | |
| **NAXÇIVAN MUXTAR RESPUBLİKASININ<br>BÜTÜN ƏRAZİSİ ÜZRƏ<br>M Ü Ş A H İ D Ə Ç İ** | № __ |

(lövhəciyin arxa tərəfi)

**M a d d ə 38. Müşahidə aparılmasının prinsipləri**

38.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

38.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

38.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

38.1.3. müşahidə açıq aparılmalıdır;

38.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***(“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu)***

*Təlimata 2c saylı əlavə*

| NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNƏ SEÇKİLƏR | SEÇKİ İLİ |
|---|---|
| **Vətəndaş** ___________________ *soyadı, adı, atasının adı* **qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında** ___________________ *qeyri-hökumət təşkilatının adı* | |
| NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BÜTÜN ƏRAZİSİ ÜZRƏ M Ü Ş A H İ D Ə Ç İ | № __ |

(lövhəciyin arxa tərəfi)

**M a d d ə 38. Müşahidə aparılmasının prinsipləri**

38.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

38.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

38.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

38.1.3. müşahidə açıq aparılmalıdır;

38.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***("Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu)***

*Təlimata 3 saylı əlavə*

| NAXÇIVAN MUXTAR RESPUBLİKASI<br>ALİ MƏCLİSİNƏ SEÇKİLƏR | SEÇKİ<br>İLİ |
|---|---|
| **Vətəndaş** ____________________<br>*soyadı, adı, atasının adı*<br><br>**özünün təşəbbüsü əsasında**<br><br>***M.Y.*** ____________________<br>*seçki dairəsinin adı* | |
| **SEÇKİ DAİRƏSİNİN ƏRAZİSİ ÜZRƏ**<br>**M Ü Ş A H İ D Ə Ç İ** | № __ |

(lövhəciyin arxa tərəfi)

**M a d d ə 38. Müşahidə aparılmasının prinsipləri**

38.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

38.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

38.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

38.1.3. müşahidə açıq aparılmalıdır;

38.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***(“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu)***

*Təlimata 3a saylı əlavə*

| NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNƏ SEÇKİLƏR | SEÇKİ İLİ |
|---|---|
| Vətəndaş ____________________ *soyadı, adı, atasının adı* **namizədin təşəbbüsü əsasında** ______________________________ *namizədin soyadı, adı, atasının adı* ***M.Y.*** ________________________ *seçki dairəsinin adı* | |
| **SEÇKİ DAİRƏSİNİN ƏRAZİSİ ÜZRƏ M Ü Ş A H İ D Ə Ç İ** | № __ |

(lövhəciyin arxa tərəfi)

**M a d d ə 38. Müşahidə aparılmasının prinsipləri**

38.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

38.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

38.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

38.1.3. müşahidə açıq aparılmalıdır;

38.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***("Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu)***

*Təlimata 3b  saylı əlavə*

| NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNƏ SEÇKİLƏR | SEÇKİ İLİ |
| --- | --- |

**Vətəndaş** ____________________

*soyadı, adı, atasının adı*

**siyasi partiyanın, siyasi partiyalar blokunun təşəbbüsü əsasında**

________________________________________

*siyasi partiyanın,siyasi partiyalar blokunun adı*

***M.Y.*** ________________________

*seçki dairəsinin adı*

| SEÇKİ DAİRƏSİNİN ƏRAZİSİ ÜZRƏ **M Ü Ş A H İ D Ə Ç İ** | № __ |
| --- | --- |

(lövhəciyin arxa tərəfi)

**M a d d ə 38.  Müşahidə aparılmasının prinsipləri**

38.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

38.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

38.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

38.1.3. müşahidə açıq aparılmalıdır;

38.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***(“Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikasının Qanunu)***

*Təlimata 3c saylı əlavə*

| NAXÇIVAN MUXTAR RESPUBLİKASI<br>ALİ MƏCLİSİNƏ SEÇKİLƏR | SEÇKİ<br>İLİ |
|---|---|
| **Vətəndaş** ___________________<br>*soyadı, adı, atasının adı*<br>**qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında**<br>___________________<br>*qeyri-hökumət təşkilatının adı*<br>**M.Y.** ___________________<br>*seçki dairəsinin adı* | |
| **SEÇKİ DAİRƏSİNİN ƏRAZİSİ ÜZRƏ**<br>**M Ü Ş A H İ D Ə Ç İ** | №<br>___ |

(lövhəciyin arxa tərəfi)

**M a d d ə 38. Müşahidə aparılmasının prinsipləri**

38.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

38.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

38.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

38.1.3. müşahidə açıq aparılmalıdır;

38.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***("Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu)***

*Təlimata 4 saylı əlavə*

| NAXÇIVAN MUXTAR RESPUBLİKASI<br>ALİ MƏCLİSİNƏ SEÇKİLƏR | SEÇKİ<br>İLİ |
|---|---|
| **Vətəndaş** __________________<br>*soyadı, adı, atasının adı*<br>__________________________<br>*subyektin adı*<br>**Mərkəzi Seçki Komissiyasının iclaslarını müşahidə etmək üçün**<br>***M.Y.*** | |
| **XÜSUSİ İCAZƏ ALMIŞ<br>M Ü Ş A H İ D Ə Ç İ** | № __ |

(lövhəciyin arxa tərəfi)

**M a d d ə 38. Müşahidə aparılmasının prinsipləri**

38.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

38.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

38.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

38.1.3. müşahidə açıq aparılmalıdır;

38.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***("Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu)***

*Təlimata 4a  saylı əlavə*

| NAXÇIVAN MUXTAR RESPUBLİKASI<br>ALİ MƏCLİSİNƏ SEÇKİLƏR | SEÇKİ<br>İLİ |
|---|---|
| Vətəndaş ___________________<br>*soyadı, adı, atasının adı*<br>______________________________<br>*subyektin adı*<br>__saylı________s/d dairə seçki<br>*M.Y.* komissiyasının iclaslarını<br>müşahidə etmək üçün | |
| **XÜSUSİ İCAZƏ ALMIŞ<br>M Ü Ş A H İ D Ə Ç İ** | №__ |

(lövhəciyin arxa tərəfi)

**M a d d ə 38. Müşahidə aparılmasının prinsipləri**

38.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

38.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

38.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

38.1.3. müşahidə açıq aparılmalıdır;

38.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***("Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu)***

*Təlimata 4b saylı əlavə*

| NAXÇIVAN MUXTAR RESPUBLİKASI<br>ALİ MƏCLİSİNƏ SEÇKİLƏR | SEÇKİ<br>İLİ |
|---|---|
| Vətəndaş ________________<br>*soyadı, adı, atasının adı*<br>________________<br>*subyektin adı*<br>__saylı______s/d____saylı s/m<br>*M.Y.* məntəqə seçki komissiyasının<br>iclasları müşahidə etmək üçün | |
| **XÜSUSİ İCAZƏ ALMIŞ<br>M Ü Ş A H İ D Ə Ç İ** | № __ |

(lövhəciyin arxa tərəfi)

**M a d d ə 38. Müşahidə aparılmasının prinsipləri**

38.1. Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

38.1.1. seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

38.1.2. müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

38.1.3. müşahidə açıq aparılmalıdır;

38.1.4. müşahidənin yekunları faktlara əsaslanmalıdır.

***("Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu)***